**VAHİD RZAEV**

# *ÜMİDİMİZ SƏNƏDİR*

BAKI – 2023

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

**"AqRa" Elmin İnkişafına Dəstək ictimai birliyi**

**VAHİD RZAEV**

# ÜMİDİMİZ SƏNƏDİR

"Nərgiz" Nəşriyyatı, Bakı - 2000

İkinci nəşr "Zərdabi nəşriyyatı"
Bakı – 2023

Bu kitab Azərbaycan Respublikası
Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi
Agentliyinin maliyyə yardımı ilə nəşr edilir və
Agentliyin mövqeyini əks etdirməyə bilər.

---

Mənbələr: Azərbaycan Respublikasının
Milli Arxiv İdarəsi fond 183 -"AqRa" Elmin
İnkişafına Dəstək ictimai birliyi.

P – 59

P $\frac{74.\ 2000}{079}$ 041-2000

© NƏRGİZ, 2000
© Zərdabi Nəşr MMC, 2023

*Paklıqla.*

*Əqli Paklıqla,*
*Ruhi Paklıqla,*
*Əbədi Paklıqla.*

*Paklıqla.*

*– Ya Böyük Yaradan, Sənə və Əbədi olan Məkanına səcdə edirəm.*
*– Ya Böyük Yaradan, Müqəddəs Ağ geyimlilərinə səcdə edirəm.*
*– Ya Böyük Yaradan, daima Nəzərində olan kainatlarına, günəşlərinə, məkanlarına, cəm yaranışlarına səcdə edirəm.*
*– Sənin İşığına, Yaranış Zərrələrinə, Rəhminə, Səbrinə səcdə edirəm.*
*– Ya Böyük Yaradan, İlkdən, Müqəddəslikdən Müqəddəs Göndərişlərinə və Göndərilən Kitablarına səcdə edirəm.*
*– İlkin Müqəddəsliyini dərk edərək Müqəddəsliyinə Qayıdan hər bəşərinə səcdə edirəm.*

*– Ya Böyük Yaradan, Yer üzünə Göndərdiyin Ruzilərinə, Bilgilərinə, Elminə şükr edirəm.*

*

| | |
|---|---|
| *Paklıqla.* | *İşıqla.* |
| *Əqli Paklıqla,* | *Əqli İşıqla,* |
| *Ruhi Paklıqla,* | *Ruhi İşıqla,* |
| *Əbədi Paklıqla.* | *Əbədi İşıqla.* |
| *Paklıqla.* | *İşıqla.* |

* * *

**BU KİTABI QARDAŞIM FİKRƏTƏ**
**İTHAF EDİRƏM**

# PAKLIQ

Ya Böyüklər Böyüyü, Ya Böyük Yaradan!

Əqlim Pak,
Ruhim Pak,
Vücudum Pak.
Hər addımım, hər baxışım Pak,
Əbədiyyətdə Əbədiyyətim Pak,
Səninlə, İşığınla, Pak İşığınla Pak.
Cəm Yaranışlarla, Pak
Yaranışlarla, Paklığımla Pak,
Müqəddəs Paklığınla Pak.

*[“Pak” — bir İşıqdır, Müqəddəsliyə*
*bir İşıqdır.*
*Müqəddəsliyə, Müqəddəslikdən*
*bir İşıqdır.*
*O, bir İşıqdır, İlkdəndir, İşıqdır.*
*O, bir İşıqdır, Yaradandandır,*
*İlkdəndir, Yaranışlardan Yaranışa*

*Pak İşıqdır].*
O, Böyükdür, Təkdir,
Yaranışı Yaradandır, Təkdir.
Müqəddəslikdən Müqəddəs
Yaranışına Yaradandır, Təkdir.

O, bir İşıqda İşıqdır,
O, Nurdur, İşıqdır,
Əbədiyə Əbədi Yaradandır,
İşıqla İşıqdır.

Onun Məkanı İlkdir,
Müqəddəslik Yaranışına İlkdir.

Özüdür, Xəsis Deyil,
Sevinclidir, Sevincdən Uzaq Deyil,
Mehribandır, Mehribanlıqdan Uzaq Deyil.
O, bir İşıqdır, İşıqladır,
İşıqlar Ondan Uzaq Deyil,
Yaratdığı Özündən Uzaq Deyil.

Yaradandır, Yaranışları Yaradandır,
Özü Əbədiykən

Əbədi Yaranışları Yaradandır.
Məkanlıdır, Məkanlıdır,
Öz Məkanında Məkanlıdır.
İlkdən İlkdir,
Öz Məkanında Məkanlıdır.

Gözəlliklərin İlkidir,
İlki ilə İlkidir,
Bu gözəlliklər Öz Gözəlliyi
ilədir, İlkidir.
Bu gözəlliklər İlkidir,
Özü ilədir, İlkidir,
Bu gözəlliklər İlki ilədir, İlkidir,
Onun Özündədir, İlkidir.
Gözəlliklər İlki ilədir, İlkidir,
Bu gözəlliklər
Onun Özü ilədir, İlkidir.
Yaradandandır, İlkdir,
Yaranışlara İlkdir, Özüdür, İlkdir.

# GÖRDÜM

*[Gördüklərim Böyük Yaradanın*
*Məkanıdır.*
*Pak Ağ, Müqəddəs İşıqladır,*
*Onun Məkanıdır].*

Mən o Böyük Yaradanı gördüm
(*Göstərdi, — gördüm*).
Öz Məkanında gördüm,
Kürsüsündə,
Pak Ağ Nur, İşıqlı Geyimdə
gördüm.
Gözlərində İşıq,
Varlığını Pak İşıqda gördüm.
Özünü Sevincdə, Rəhmdə, Səbrdə gördüm,
Cəm kainatları, Cəm Yaranışı
Ətrafında Hərəkətdə gördüm.
Ağ geyimli Müqəddəsləri
bir Düzümdə gördüm.
Özü Rahat İdi,
Sevincli İdi,
Rahat İdi;

Hər an Yaradıcılıqda,
Yaranışlarla bir Bağlılıqda gördüm.
Yaranışları Ətrafında,
Varlığında, Ətrafında
Görmədə gördüm.
Zəhimsiz gördüm,
Təlatümsüz gördüm,
Böyük Rəhmdə, Böyük Səbrdə gördüm,
Müqəddəsliyi,
Müqəddəs İşıqları
Ətrafında gördüm.
Mehribançılığı, Sevinci,
Təkrarsız Gözəlliyi
o Böyük Yaradanda gördüm.
Yer məkanına görə Şimali-Şərq
istiqamətdə o səmtə Qalxışda gördüm.
Cəm kainatları Ətrafında,
Özünü Zirvədə, Nurda gördüm,
Böyük, İlahi Mehribançılıqda gördüm.
Özünü Deyimləri ilə kainatları,
varlıqları, cisimləri
Onun Baxışında, Özü ilə gördüm.
Yaranışın İlkini,

Kainatların İlkini,
Müqəddəslərin İlkini,
Yaranışın İlkini
Yaranışların
Müqəddəs Əbədi İşıqlarında gördüm.
Böyük Yaradan Göstərdi, — gördüm.
Müqəddəsliyi, Əbədiyyəti,
Ölümsüzlüyü,
bəşərin özünə etdiyini,
əzabda özü ilə özünü gördüm.
Kamİlkən cahillikdə,
cahillik əzabında özünü gördüm.
O bəşəri, o varlıqları gördüm.
Keçmişi, bu günü, gələcəyi gördüm.
Məkri insanın özü ilə özündə gördüm.
Kainatların əbədiyyətini
Əbədiyyətdə gördüm.
Böyük Yaradanı Əbədiyə
Əbədi Yaradan gördüm.
İlkdən Olan o Yaradanı gördüm,
Əbədiyyətini Əbədiyyətində gördüm.
Mehribanlığı yenə Özündə gördüm,
Rəhmini yenə Özündə gördüm,

Səbri yenə Özündə gördüm.
Yaranışları yaranışlara
Yaratdığını gördüm.
Özünü bir İşıqda,
Özünü, o Yaradanı Tək gördüm.
Yaranmış yaranışları
Özü ilə Ətrafında gördüm.

## DİLƏNÇİLƏR

Qardaş, "Pul" deyib, yığma. Pul maddiliyin özüdür, yığma ətrafına maddilik, varlığın ətrafına maddilik yığma. Səxavət yığ, rəhm yığ. Səxavət yığdığın, rəhm yığdığın sənindir, — Qayıdışında sənindir.

Bax, dünyaya bax, bugünkü bəşərə, bəşəriyyətə bax. Dünyada qanunlar çoxdur, dövlətlərdə qanunlar çoxdur. Amma o dövlətlərdə səxavətli olmağa qanun yoxdur, rəhmli olmağa qanun yoxdur. Hümanistlik var, amma o, rəhmin qanunu deyil. Hər varlığa mehriban olmağa, sevincli olmağa

qanun yoxdur. O qanunlar bəşərin varlığındadır, o qanunlar kainatlardadır, o qanunlar Böyük Yaradan Ətrafındadır. O qanunlar İlahiyyətdədir, İlahidir. Böyük Yaradanın o Baxışları olmasa idi, cəm yaranış Bağışlanılardımı? — Yox.

Bəşər özündən uzaq olduqca, kainatlardan da uzaqlaşır.

Baxdım bəşərə, baxdım insanlara, baxdım küçələrə, — dilənçiləri, dilənənləri gördüm, əllərini bəşər qarşısında bəşərə açdığını gördüm:

— "İlahi, bəşər əllərini Sənə açsın, Səni axtarsın, Səni tapsın. Əllərini Sənə, kainatlara açsın. Səbrdə olub, cəbrli olub, səbrlə açsın; məqsədsiz, təmənnasız açsın".

Desin ki, "Ya Böyük Yaradan, bu gün yer üzü qaranlıqdadır, ruzisizlikdədir, ruzisizliklərə qaranlıqdadır, bəlalarla, qanla qaranlıqdadır. Özümü özümə Qaytar, İlahi. Bu əllərimi işləməyə Qaytar, İlahi. Boş gördüyüm əllərimi işləməyə Qaytar, İlahi.

Yığdığım səhvlərin nəticəsidir, — əllərim boşdur, İlahi.

İlahi, başda başçı olanların sözdə yox, əllərini işə Qaytar, İlahi. Bu bəşərə mehribançılıq, ruzi qədərlərini Qaytar, İlahi. Özümüz özümüzdən uzaq olmuşuq, özümüzü özümüzə Qaytar, İlahi. Cəm bəşəriyyəti zəkasına Qaytar, İlahi.

Biz istədik, — nə istədik, cəm bəşər istədi. Ruzisizlikləri, qanları, müharibələri, biri-birimizə etinasızlıqları biz istədik, İlahi.Bu sağalmaz xəstəlikləri, cahilləşib cahilliyi istədik, İlahi.

Özümüzü özümüzə Qaytar, İlahi. Məkrlilər öz məkrlərində, — əzabı cəm bəşərədir, İlahi.

Əllərimi Sənə açım, İlahi; xilasımız Səndədir, İlahi. Əbədiyyətə qayıdışımız Sənədir, İlahi".

İnsanların çoxu ehtiyacdan əllərini açır, amma bir hissəsi özünü bununla bir vərdişdə, peşədə görür. Bəşər isə böyük yaranışdır, Böyüklükdən yaranışdır.

Böyük Yaradanın Özünü Öz Məkanında gördükcə, sanki, qalxırsan İlahiyyətin özünə.

Böyük Yaradan Önündə səcdədə durarsan, Əllərini yana açarsan: "Ya Böyük Yaradan, Sən nə qədər Səxavətli, nə qədər Mehribansanmış ki, Özün Yemir (*Qidalanmır*), Özün (*su*) İçmirsən, bəşərinə, canlı varlıqlarına, cəm varlıqlarına qida qədəri Təyinləşdirib Göndərirsən. Qeyri-canlılara (daş, taxta, dəmir, şüşə və s.) nəmliklə nəmlik qədəri, varlıqlarda zərrələr qədəri Ayırırsan. Bitgilərə, hər bitginin özünə aid bu torpaqdan qida qədəri Ayırırsan. Bir-birinin yanında olan bitgilərə öz qədərlərini Ayırırsan: bibərə bibər acısını, üzümə üzüm şirinliyini, armuda armud ətrini, güllərə öz rayihəsini Ayırırsan. Planetlərə zərrə qədəri, İşıq qədəri, o planetlərinə nəmlik qədəri Ayırırsan.

Sən İlksən, Rəhmlə İlksən,
Səxavətlilərin İlkisən,

Rəhmlisən, Rəhmin İlkisən.
Sənsən, Sənsən Yaranışları Yaradan,
Sənsən, Təksən, Özünsən, — Sənsən.
Sən Elm, Kamillik Göndərirsən,
Müəmmaları, inkarları bəşər axtarır.

## ZƏRRƏLƏR VƏ İŞIQ PAYI

Zərrələr Yaradanın Rəhmi ilə axımdadır; bir-birimizin arasında yaradıcı, həlimlik, mehribanlıq axımıdır. Onlar həmişə hərəkətlidir.

"İşıq Payı" dedikdə isə Yaradanın bir Yaradıcı olub, canlılara və digər varlıqlara yenə Rəhmində, Rəhmi ilə Özündən yaranış (ruh) Payı Ayırmağı, Verməyi nəzərdə tutulur.

Misal: radio-televiziya siqnallarını gözlərimizlə görə bilmirik. Amma evimizdə Onun yayımının son nəticəsini görürük. Bu, "zərrələr axımı" açımına yaxın anlamdır.

# BAXIŞ

Baxışlar arasında baxış axtardım.
Bəşərdə baxış axtardım.
Baxışlar gördüm,
amma o Baxışı görmədim.
Böyük Yaradanın Yaranışa
Mehriban, Həlim,
Sevincli Baxışını
yaranmışın baxışında görmədim
(*burada "yaranmış" sözü "bəşər" mə'na-sındadır*).

Yaradanın, O Böyük Yaradanın Baxışını kainatlara, varlıqlara, hissəciklərə, cəm Yaranmış Yaranışa nə qədər də Mehriban, Həlim, Şövqlə, Rahatçılıqla dolu olan o Baxışı cəm Yaranmış Yaranışlar arasında görə bilmədim.

30 oktyabr 1999-cu il

## YARADAN

Yaradan — Yaradandır,
Yaranmış — Yaranan.
O Böyük Yaradandır Yaradan,
Cəmləri Təkdir Yaradan.
Rəhminə, Səxavətinə bax,
Məqsədsizdir Yaradan,
Təmənnasızdır Yaradan.
Əbədiyə Əbədi Yaradandır Yaradan.

## ÇƏTİNDİR YAŞAMAQ

Ay Vahid, nə çətindir yaşamaq?
nə çətindir bu dünyanı yaşamaq?
Bəşər bəşəri başa düşmür,
bəşər bəşərə,
bəşərtək yaranışına
bəşərtək baxmır.
Baxmayan bəşər,
— bu bəşər Əbədiyyətə baxa bilmir,
Əbədiyyəti görə bilmir.

# DARIXDIM

Darıxdım, darıxdım,
İlahi, darıxdım.
Deyimləri, Anlamları olduğu kimi
açıb deyə bilmədiyimə darıxdım.
Darıxdım, İlahi, darıxdım.
Bu bəşər arasında darıxdım.
İlahi, darıxdım.

* * *

Darıxdım, İlahi, darıxdım,
Özümə baxdım,
ətrafıma baxdım, darıxdım.
Özümə baxdım,
aqibətimə baxdım, darıxdım.
Bu insanlar İşıqdakən,
qaranlıqlarına darıxdım.
Diləklərdəki,
Varlıqlardakı yalanlara darıxdım.
Naxçıvandan Bakıya baxdım,
Bakı üçün darıxdım.
Vətənim Bakıdır,
vətənim üçün darıxdım.

İndi Bakıdayam,
özümlə Bakı arasında, — darıxdım.
Ümidləyəm,
ümidimlə özüm arasında darıxdım.
Darıxdım, İlahi, darıxdım.

## SƏDDİR

Soruşub bəşər, soruşacaq bəşər:
"Niyə o Böyük Yaradanı
görmürəm?". — Özünü görməyən,
özündən rəhmi görməyən,
öz xeyirxahlığını görməyən
Böyük Yaradanı Görə bilməz,
eşitsə də, Eşidə bilməz,
görsə də, Görə bilməz.

* * *

Özü özünə səddir,
cahilliyi, həqsizliyi özünə səddir.
Böyük Yaradanı Görməyə özü-özünə
səddir.

# ARA

Bəşər Yaranışı
istədikləri ilə
yaranacağı arasındadır.
Etdikləri ilə bölümü arasındadır,
(*yenidən*) yaranacağı arasındadır.

# BAXSANA

Saat neçədir? — baxsana,
saat üçdür, baxsana;
uşaqlar yatıb, baxsana;
kainatlara bağlısan, baxsana,
oradan Yer üzünə baxsana,
Yer üzündə fəryadlara baxsana,
qan içində, ümidsizlikdə olan
bəşəriyyətə baxsana;
onlara xilas gələcək, o xilasa baxsana,
Rəhm yenəcək, o Rəhmə baxsana.

# ÜMİDİMİZ SƏNƏDİR

Sənsən, Sənsən,
Sən Özünsən, Görən Sənsən,
Bilən Sənsən,
Müddətlərdə Müddətləri
hərəkətdə Edən Sənsən.
Səbrlə, Səbrdə Baxan Sənsən.
Qədərləri Bölən Sənsən,
Anında Anı da Ayıran Sənsən,
Sən Özünsən.
Yaradan — Sən, Əbədi Olan — Sən,
Yaranışları Yaradan — Sən.
Əqlimiz Sənədir,
Zəkamız Sənədir,
Ümidimiz Sənədir.
Sən İlksən, İlkə, o Yaradana, — Sənədir,
ümidsizlikdə ümidimiz yenə Sənədir.
Ümidin Əvvəli Sənsən,
ümidimiz Sənədir.
Kainatların İlkin hərəkətindən
cəm kainatlara Ümidlə,
Ümiddə Baxan Sənsən,

Səbrlə, Mehribanlıqla Baxan Sənsən.
Ümidli olmaq günahımız deyil,
ümidimiz Sənədir.
Ümid Sənsən, İnamımız Sənədir.
Sevinclə Baxan Sən,
sevgi axtaran bizik.
Sevinclə,
Sevgidə cəm Yaratdıqlarına
Baxan Sənsən, ümidimiz Sənədir.
Sevinc Yerdə deyil,
Sevgi Yerdə deyil.
İstək kainatlardandır.
Mehribanlıq kainatlardan,
Vəhdət kainatlardan,
Bağlılıq Səndəndir.
Bağlılığımız Sənədir.
*26 noyabr 1999-cu il, Bakı*

## BƏŞƏRİN İSTƏYİ

Nə istədi, bəşər istədi,
istəklərini Səndən istədi,

Başqa İstəklimiz yox idi, —
istəklərini Səndən istədi.
İstək istədi,
müddət istəmədi,
Müddəti görə bilmədi, Anı o an istədi.
Sən Göndərdin,
müddətlərdə müddətinə Göndərdin,
O müddətin o anında Göndərdin.
Kainatların Vəhdət hərəkətini görməyən —
müddətləri görmür.
Görən — anı görür, mühakiməsi anadır,
mühakiməsi anladır.
Vaxt yoxdur,
Zaman yoxdur, —
Müddət var,
Müddətdə an var.
Müddət bağlılıqdır,
— halların ardıcıl bağlılığıdır.
Bəşər görmədi,
müddətdə əlamətləri görmədi.
Əlamətlərdədir müddət, vaxtda deyil,
zamanda deyil.

Əlamətdədir, əlamətlədir,
o əlamətlər müddətlərdədir.
Müddətdə gəlib, müddətində gedirik.
Müddət olmasa idi, An olardı,
Anda gəlib, Anda gedərdik,
Kainatların hərəkəti Anda,
hərəkətlər Səbrsizlikdə, Anda olardı.
Kainatlar hərəkətdədir,
müddət-müddət hərəkətdədir,
— Yaranışın İlkindəndir,
o Anında İlkindəndir.
Müddətlər İlkindəndir.
Müddətlər Səndəndir,
Müddətlər Sənlədir.
Sən Müddət Deyilsən,
Müddətdə Deyilsən.
Sən Əbədi,
biz bəşər — müddətdə Müddətləyik.
O müddətdə səbrsizik,
Dözmürük, səbrsizik Görmürük.
Səbrsizik, — bilmirik ki, səbrsizik.
Bəşər görür, — anı görür,

bəşər müddətlərdə Müddət görmür.
Özü Müddətdədir, müddət görmür.
O, qəbahət deyil, — bəşər istəklidir, —
hər halın tezliyinin istəyindədir.

## YAXŞIDIR

Hər şey yaxşıdır:
o da yaxşıdır,
bu da yaxşıdır,
bəşərtək yarandığımız yaxşıdır.
Sən Yaradansan,
bəşərtək yaranışımız
yaxşıdan yaxşıdır.

## BAĞIŞLAYARLAR, BAĞIŞLAMAZLAR

Bağışlayarlar, bağışlayarlar,
qadına çiçək bağışlayarlar.
Bağışlayarlar, bağışlayarlar,

qadına gül bağışlayarlar.
Bağışlayarlar,
— qadına şirin-şəkər bağışlayarlar,
Bağışlayarlar,
— ona qızıl bağışlayarlar
(rəngini rəngarəngliyinə bağışlayarlar).
Bağışlayarlar,
— musiqi ahəngi bağışlayarlar,
söz, şe'riyyat bağışlayarlar
(çox sözlər arasında
sözü düzümdə bağışlayarlar).

Onlara nəyi bağışlamazlar? —
Rəngarənglilik arasında
onun gözlərini bağışlamazlar,
Gözlərində istəyini bağışlamazlar, İstəyində
məkri bağışlamazlar.
O gözəlliklər arasında
"çirkinlikləri",
ahəngsizliyi bağışlamazlar.
Ahəngsizlik arasında
o dönüklüyü, səbatsızlığı,

sabitsizliyi bağışlamazlar.
Bağışlana bilinməyəni bağışlamazlar.

Kişiyə bağışlamazlar, —
kişiyə hədiyyələr bağışlamazlar.
Kişiyə tövsiyyə edərlər
əqli, zəkanı;
dözümü, səbri tövsiyyə edərlər.
Bu tövsiyyə böyükdür,
dünya qədərində böyükdür.
Dünya bağışlamazlar,
dünyanın Vəhdət ardıcıllığını
tövsiyyə edərlər.
Kişi haradadır, qadın haradadır, —
gör ki, bir bağlılıqdadır.

## DOYDUM

Doydum, daha doydum,
"olanlardan" doydum,
"olmayanlardan" doydum.

## ƏSRİN SONU

İlin yox, əsrin sonudur.
Çox sonların sonudur.
Ümidlərin, ümidsizliklərin sonudur.

## İSTƏMƏ

İstəmə, istəmə, istəmə.
Olmayanı istəmə.
Ölüm yoxdur, istəmə.
Ölümsüzlükdə Ölüm yoxdur, istəmə.
Ümidsizlikdə ümid var,
Ölüm yoxdur, istəmə.
Ölmək xilas deyil, olmayanı istəmə.

## TEZ DEYİL

Xilas var, —
ümiddə xilas var,
ümiddə səbr var.

Ümidlə səbrdədir xilasımız.
(“Tezlikdə” tezdir,
müddətdə, andadır, tez deyil).
Səbr səbrlədir, tez deyil.
Səbrdədir ki, müddətdir,
səbrdir ki, andır.
Səbrsizlikdə səbrdir ki, tez deyil.

## QIRMASIN

Ya Böyük Yaradan, qırmasın,
bəşər bəşəri qırmasın,
öldürməsin, qırmasın.
Bəşəriyyət heyifdir,
qırılmasın, qırmasın.
Biri-birini başa düşə
bilirlər istəyən zaman,
çoxunun arzusudur —
biri-birini qırmasın.
Sən Göndər,
Yer insanları arasına

sülhü Özün Göndər.
Sən Göndərirsən, —
gözümüz olsun, görə bilək.
Sən Göndərdiyin
o Mehribançılığı görə bilək.

## ADIN

Bəşəriyyətə Adın lazımdır...
Adından Adın lazımdır...

*

Adını çəksəm, ölləm,
Adını deməsəm, yenə ölləm.
Adını çəkib "ölmək" —
Ölümsüzlükdür, demək.

## YARADANSAN

Özünü Açdın, Özünü Göstərdin,
Qaldırdın, Səni gördüm, Ad dedim.
Özünü Olduğun kimi dedim.

Yaradan Sən, yaranan mən,
Sənin Rəhmini, Səbrini gördüm.

## ASAN DEYİL

Allah adı gətirmək asan deyil,
"Allah" demək asan deyil.
Allahı açıb demək hər oğulun işi deyil.
Qaçarsan, qaçmaq asan deyil,
gizlənərsən, gizlənmək asan deyil.
Allah deyimindən,
Allah Nəzərindən gizlənmək asan deyil.

## QAN İSTƏDİ

"Elmsizlik", "İlahiyyatsızlıq"
bu bəşəri, o bəşəri
qırdı, qırdırdı, qırdırmadadır.
Yaradan Elm Göndərdi, —
bəşəriyyət "elmlə"

“İlahiyyat” arasında
“İşıqdakən”
qan istədi,
qan gətirdi;
mıxı vurdu,
“mıxa asdı”,
“o piyalələri” “mıxa” asdı.
“Qılıncla” “mıx”,
“mıxla” “acı piyalələr” gətirdi.
“Kəsdi”, “mıx” gəldi,
“mıxla” “piyalələr” gəldi.

Qalxmalıykən, qalxıb “Durmalıykən”, bu gələnləri gedərdə, gedənləri ayrı-ayrı gəlmədə gördüm.

## BİRCƏ YARANIŞ

Eh, ay Vahid, bir dəfə yaranmısan,
daha yaranmayacaqsan.
Atam daha dönməyəcək,
anam daha dönməyəcək,
mən də daha dönməyəcəyəm,

bir də kiminsə atası olmayacağam.
Əbədiyyətə, Yaradana
Dönə bilsəm, Dayanacağam.
Onun Önündə Dayanacağam.

Mən tək olsam da, "üçü ilə" *(ikisi — sağ və sol çiynimdəki və biri isə məni hifz edən Ağ geyimli olmaq e'tibarilə üç mələklə)* və məndən əvvəlki "Vahidlərlə", kainatlarda "son gün, son gecənin" səslənməsindən əvvəl Yaradan Önündə duracağam, Yaradan Önündə duracağıq.

Biz Əbədiyyətimizə, Əbədiyyətimizdə tez duracağıq.

Yubansam, — "yubanacağıq", məndən "sonrakını" gözləyəcəyik.

Məndən "sonrakı" mən olmayacaq,
Mənim bu məkanda etdiklərimdən,
topladıqlarımdan qədərli olacaq,
amma "mənim qayıtdığım"
yaddaşda olmayacaq,
mənim yaddaşımla qayıtmayacaq.
"Mən" də olmayacaq,

"Vahidlərin" davamı olacaq, —
o "Vahidlərdən" olmayacaq;
Qayıdışımız,
Müqəddəsliyə Qayıdışımız,
İlkimizə Qayıdışımız
yubanmada olacaq.

## PEYĞƏMBƏRLƏR

Deyənlər dedi ki, 124 min Peyğəmbər
Göndərildi yer üzünə.
O Peyğəmbərlər Göndərildilər, —
Gəldilər,
bəşər arasına Gəldilər.
Onlar döyüldü,
Onlar qovuldu,
Onlar öldürüldü,
Əbədiyyətimizə,
İlkimizə Qayıdışımız yubanmada oldu,
— sonumuz Məhşərlə oldu.

# LABÜD DEYİL

Ey bəşər, düşün: Məhşər labüd deyil. Yer
Məkanının yanması labüd deyil. Müqəddəs
yerlərin, Atəşgahların, Məscidlərin,
Kalisaların yanması labüd deyil.
Düşün, ey bəşər, düşün:
Qayıdaq, yanmayaq, Qayıdaq,
yandırmayaq
mə'bədləri, səcdəgahları,
Yer məkanını yandırmayaq.
Əbədiyyətimizdə Əbədiyyət var,
İlk Babamız, İlk Nənəmizin
o Əbədiyyətinə
cəzasız da Qayıdışımız var.
Bu, nağıl deyil,
bu, yalan deyil.
Nağıl axtarma, nağıl deyil.

# ÖZÜ GƏLMƏLİDİR

Vahid, özü gəlməlidir Vahid.
O Böyüklük özü gəlməlidir, Vahid.
Varlıqlara,
zəkalara,
elmlərə özü gəlməlidir Vahid.
Bərqərar Odur, Bərqərar Edən Odur.
O Böyüklüyü kiçikliklər arasında
sən bərqərar edən deyilsən, Vahid.
Özü gələcək Vahid,
aramıza özü yenəcək Vahid.
Az qalır, Vahid,
Özü "yenəcək" Vahid.

# BÖLƏCƏK

0 *(sıfır)* olacaq, ilin yarısı olacaq.
Bir çevrəni,
tənbölən xətdən,
sıfırdan, inkar tərəfindən

bəla qalxacaq, uğuldayıb, qaynayıb,
o xətti yarılayacaq, yarı böləcək.
Bir xətt olacaq,
cənubi-şərq istiqamətdə düzüm olacaq.
Təzyiqi o edəcək.
*17 yanvar 2000-ci il*

# MATƏM

Bu gün 20 yanvardır, —
bu gün matəmimizdir.
Yer üzünün matəmidir.
Bəşərin matəmidir.
Bu gün 20-dir, matəmimizdir.
Bakıya baxdım, səmaya baxdım,
Səmanı hüzndə, sanki, ağlamaqda gördüm.
Səmanı dərddə gördüm,
Bu insanları kütləvi matəm
günümüzdə gördüm.
Yaradana baxdım,
Yaradandan baxdım,

öz ərazimizə baxdım,
öz matəmimizə baxdım,
özümümüzə baxdım,
— təəssüf etdim;
özümüzü təsdiq etməyib,
başqalığı təsdiq etmədə gördüm.
Özümüz var ikən,
özümüzü özümüzdən uzaq gördüm.
Özümə baxdım, təəssüf etdim,
özümüzə baxdım, təəssüf etdim.
Özümüz var ikən,
özümüz olmalıykən,
başqalarını,
başqalıqları gördüm, təəssüf etdim.
Matəmə baxdım, matəmi gördüm,
Səmanı matəmdə gördüm.
Matəm istəkliləri kənarda,
özümüzü matəmdə gördüm.
Kənardan yenə bizi matəmdə görmək
istəkliləri matəmdən kənar gördüm.
Heyf bizə, heyf yaddaşımıza.
Heyf bizə, heyf babalarımıza.
Babalarını görməyən — özünü görməz,

özünü tanımayan — özünü tanıda bilməz.
Özünü tanıtmaq istəməyən —
yadlığı təsdiq edər, özünü təsdiq etməz,
etmək istəməz.
"Yad" sənə yaddır,
aramıza girib, — yaddır.
Tarixsizliyimiz bizə yaddır. Babasızlığımız
bizə yaddır.
Biz var ikən,
yaddaşsızlığımız bizə yaddır.
Bizi yaddaşsız görmək istəklilər
bizə yaddır.
Bu gün matəmdir, — bu tarix (20 yanvar)
sevinc günü ola bilərdi, amma bu tarix bizə
matəmdir.
Günortadır, Gün çıxdı,
İlahi, — yaxşıdır,
İşığımız
özümüzə Qayıdacaq, — yaxşıdır.
Biz məkrə qalib olacağıq, — yaxşıdır.
Bu, əlamətdir, — yaxşıdır.
Qalibiyyətimiz yaxşıdır.

Yad tarixlər yox, öz tariximiz,
özümüz özümüzlə olmağımız yaxşıdır.
Çox qədim tariximiz var,
axtaranlar olsa, yaxşıdır.
Bizi birliyə gətirənlər olsa, yaxşıdır.
O istəklilər olsa, yaxşıdır.

## QAYTAR

Bizi bizə Qaytar, İlahi,
Yaddaşımızı özümüzə Qaytar, İlahi.
Yadları təsdiq etmişik,
özümüz kənarda qalmİşıq, İlahi;
Müqəddəs bu əraziyə,
Müqəddəsliyə Qaytar, İlahi.
Vəzifəyə yox,
yaddaşımızı özümüzə Qaytar, İlahi.
Tariximiz qədimdir,
özümüzü Özümüzə Qaytar, İlahi.

# SATILMAZSAN

Səni satmaq olmaz, satmıram.
Satılmazsan, satmıram.
Səni, o Müqəddəsləri
satmaq olmaz, satmıram.
Sən Satılmazsan, satmıram.
Biz Səni satmadıq, satmırıq,
Sən Satılmazsan, satmırıq
(*Vahid və qardaşı Fikrət*).
Sən Əşya Deyilsən, satmırıq,
Sən Materiya Deyilsən, satmırıq,
Sən Cisim Deyilsən, satmırıq.
Biz İnamımızı satmırıq.
Özün Bilirsən, — pulsuzuq,
kasıbıq,
amma, yenə Səni satmırıq.
Sən İlahisən, Yaradansan, Paksan,
Paklığın Əvvəlisən, Əbədisən,
Əbədi Yaradansan.
Sən bir Nur, Nurlasan, Nurdasan.
Sən Var İdin ki, biz varıq,
Sən Varsan ki, biz də varıq,

Sən Olacaqsan ki, biz də olacağıq.
Nə Edəcəksənsə, Sən Edəcəksən,
Necə Baxacaqsansa, elə baxılacağıq,
Necə Görəcəksənsə, elə görünəcəyik.
Amma Səni biz satmadıq, satmayacağıq,
Sənə necə baxdıqsa,
“Yaranış” Kitabına da elə baxdıq.

## SUAL

Ya Böyük Yaradan,
Bilgin çox, bilgilər çox, —
yadımda, yaddaşımda qalsın!
Bu aylar çox Bilgilər alıb, çox hallar gördüm.
Yer üzünü hüzndə,
bəşəri bir-birini qırmada gördüm.
O qırmaları Adla, adlıqda gördüm.
Təəssüf etdim, sualda sual etdim...
Sən Bildin, mən bildim.
Sən Açdın ki, mən bildim.
*23 yanvar 2000-ci il*

## DAĞIDICILIQ

Yer üzünə qanla gələn, qanla gedəcəkdir. Dağıdıcılıqla gələn, dağıdıcılıq istəyən, dağıdıcılığı güc bilən o bəşəriyyət. Özü öz qanı ilə, özü öz dağıdıcılığı ilə, özü dağıtmaqla dağılıb məhv olacaqdır. Qanla gələn qanla gedəcəkdir, dağıdıcılıqla gələn özünün dağıdıcılığı ilə gedəcəkdir.

Onlar qalib ola bilməz, sülhlə gəlməyən qanla qalib ola bilməz.

## RƏNGLƏR

Qan qırmızı, yarpaq yaşıldır.

Ağ İşıq — sarı üstündə bir İşıqdır.

Al (qırmızı) — İlkdən olan o Partlayış Anından İşıqla İşığın yayılma qədərinin azalan sərhədliyidir (İşıqla qaranlığın arasıdır).

Yaşıl — axıcılıqdır, kainatların harmoniyasının (ahənginin) sakit hərəkəti, onunla

bir vəhdətdə ağ zərrələrin sakit axım birliyidir. İkisi birlikdə birdir.

Sarı — Ağın özündədir. Ağ azalır, sönmür, qurtaracağı sarılaşır, tez dönür, ağlıq toplayıb, ağlıq gətirir.

## SONUMUZ

Sənsən, Sənsən, Sənsən, Ya Böyük
Yaradan!
Sənsən İlkimiz, Sonumuz Sənsən.
"Sonumuzdan" sonra yenə İlkimiz Sənsən.
Bizi Yaradan Sən, Əbədi Özün,
bizi Əbədi Yardan Sənsən.
Səbrsiz biz, Səbrli Sənsən.

## TƏKSƏN

1. Nurdan olan Nurlu İşıq.
2. Qaranlıqlara İlk İşıq.
3. Yaranışları Yaradan Böyük Yaradan.
4. İlkin İlki, Paklığın İlki Böyük Yaradan.

5. Səbrlilərin, Səbrin İlki Böyük Yaradan.
6. Nursan, İşıqsan, Yaradansan, Yaradıcısan.
7. Səxavətlilərin Səxavətlisisən.
8. Mehribanların Mehribanısan.
9. Rəhmlilərin Rəhmlisisən.
10. Bağışlayanların İlkisən, Bağışlayansan.
11. Bilgiləri Göndərən Sənsən.
12. Elmlərin İlki Sənsən.
13. Kamilliyin İlki Sənsən.
14. Özün Varsan, Nurdansan, Nursan. Ad axtardım, ad olmadı, Özünün Özlüyünü dedim.
15. Cəmin Özüsən, — Təksən, — Cəmlərin İlki Sən Özünsən.
16. Adların Əvvəlisən, Özünsən.
17. Yaranışın Əvvəlisən, Təksən, Özünsən.
18. Yaradansan, Təksən, Özünsən.
19. Sənə baxan, Səni Görən Ad görmədi, Səni gördü, Sənliyini dedi, Özlüyünü dedi.
20. Səni gördüm, ad görmədim. “Alisən” dedim, “İlksən” dedim, “Yaradansan” dedim, “Nursan” dedim, “Rəhmsən”

dedim, “Səbrsən” dedim, “İlkin İlkisən” dedim, “Təksən” dedim, “İşıqda İşıqsan” dedim. Ətrafında yaranışlar, kainatlar, məkanlar, cisimlər, zərrələr, Zərrə İşıqları, Müqəddəslər. Cənnətini gördüm, Cəhənnəmini gördüm, cənnətlə Cəhənnəm arasında yenə Rəhm Etdiyin, Bağışladığın o bəşəri gördüm. Hər an Səni Yaradıcılıqda gördüm. Çox anlamlarda Adını görmədim, Böyüklüyünü, İlk Olduğunu, Nurdan Olduğunu, İşıqda Olduğunu gördüm.

21. Hər nə gördüm, Sənin Ağ İşıq Payını, Zərrəni gördüm, — yenə Səni, İlki, Səni gördüm.
22. Yaranışda, Qayıdışda, Əbədiyyətdə — yenə Sənin İşığını gördüm.
23. Hər varlıqda, hər cisimdə Zərrəni, İşıq qədərini gördüm, — yenə Səni gördüm.
24. Məkanlara, Planetlərə baxdım, — yenə Sənin Ağ İşıq Qədərini, payını gördüm.

25. Səni Öz Məkanında, amma hər varlıqda İşığının Payını gördüm.
26. Hər varlıqda İşıq Payını gördüm, amma Səni Öz Məkanında gördüm.
27. Səxavət axtardım, Səxavətin İlkini Səndə gördüm.
28. Ölüm axtardım, Ölüm görmədim. Əbədiliyini gördüm, Əbədi yaranışını gördüm, Ölüm görmədim.
29. Sən Əbədisən, Əbədiyyətini gördüm.
30. Baxışına baxdım, Bir gördüm, hər yaranmış varlığa Baxışını bir gördüm.
31. Sənə baxdım, Üzünə baxdım, Nurun İlkinə, Gözəlliyin İlkinə, Rəhmin İlkinə, Sevinclərin İlkinə, Səbrin İlkinə, İşığın İlkinə baxdım, İlklərin İlkini Səndə gördüm.
32. Kainatlara baxdım, — rəng gördüm, rənglərin Səninlə İlkini gördüm.
33. Rənglərdə rənglər gördüm. Rənglər gördüm, — Nur İşığını, Pak Ağ İşığını Məkanında gördüm.

34. Rənglərdə Payını gördüm, Rəng Payını gördüm. Hər rəngdə İlkin Rəngi — Ağ rəngi, Pak Rəngi Gördüm, yenə Sənlə gördüm.
35. Haraya baxdım, İşığını, Zərrəni gördüm, amma Səni Öz Məkanında gördüm. Səni gördüm, Zəhmsiz gördüm, Mehriban gördüm, Sevincdə, amma Tələbkar gördüm.
36. Səni gördüm, Ətrafını gördüm, məni bəşərtək Yaratdığını, o yaranışlardan biri olduğumu gördüm, Özümü Sənin Ətrafında gördüm.
37. Səni gördüm, Peyğəmbərləri Ətrafında, bir Müqəddəs İşıqda, Əbədiyyətdə gördüm. Hər birini öz tə`yinlənmiş məkanında gördüm.
38. Sənə baxdım, Səni gördüm; Yaradanın başqasının olduğunu axtardım; döndüm, — yenə Səni gördüm.
39. Səni Tək gördüm, Tək Yaradan Olduğunu gördüm, başqasını görə bilmə-

dim; olmayanı görə bilmədim, — yenə Sənin Tək Olduğunu gördüm.

40. Sənə baxdım, Ad axtardım, adların hamısı Sənin. Sənə ad axtardım, cəm adların əvvəli Səni gördüm. Cəmlərə baxdım, kainatlara baxdım, məkanlara baxdım, cisimlərə, materiallara, materiyalara baxdım, "biz" dedim, bizi gördüm, səni Tək gördüm. "Sən" dedim, Səni "Böyük Yaradan" dedim; O Nur Qarşısında Nura Səcdə etdim. Özlüyünü dedim. Adların Əvvəli Sənsən, Sənə "Sən" dedim, — günah etmədim, cəza etmədim, qaranlıq yığmadım, İşığınla bir Vəhdətdə oldum. Qalxdım Sənə, Vəhdətinlə Qalxdım. Sənə nə dedimsə, Vəhdətinlə dedim, Necə gördüm, elə dedim. Sənin Baxışında Baxışını dedim. Səni necə gördüm, elə dedim, Varlıqlarını necə gördüm, elə dedim. Sən Göstərdin, — mən gördüm, Sən Dedin, — mən bildim. Sən Olmasa

İdin, — mən olmazdım. Sən Olmasa İdin, — kainatlar, yaranmış yaranan, cisim, varlıq, bəşər olmaz idi. Sən Varsan ki, Cəm Yaranış var. Sən Varsan ki, Səbr, Rəhm var. Sən Varsan ki, Cəm yaranmışlar var.

41. Var, var var, Sən Varsan ki, varlıqlar var.
42. Sənə Ad demədim. Səni gördüyümü, Sənin Özlüyünü dedim.
43. Özlüyündür Adın, Adlığındır Özlüyün.
44. Birliyini gördüm. Cəm Yaranışlarla Bir Vəhdətini gördüm. “Bir” dedim, — Birliyini dedim.
45. Səni Nurda Nur gördüm, Məkanında gördüm. Səni bir İşıqda, yaranışları Sənin İşığından, Zərrəndən Paylı gördüm.
46. Gördüm, Yaradanı gördüm. Yaranışda Tək Onu gördüm. Əzəmətinə baxdım, Əzəmətini gördüm. O Yaradanı Böyük Yaradan kimi gördüm.

47. Nurda, Ağlıqda, Müqəddəslik İşığında İlki, Özünü, Ətrafında Cəm Yaranmış Yaranışları gördüm.
48. Səni Tələbkar, Rəhmli gördüm. Ağ geyimlilərini Önündə səf-səf düzümdə gördüm. Səf-səf olmaqla, səd-səd, on iki cərgədə gördüm.
49. Səd-səd düzülənlər arasında Ağ geyimli Müqəddəslər gördüm. Qarışıq gördüm, — kişi, qadın qarışıq gördüm.
50. Ağlıqla Ağ Məkanını gördüm. On beş Pillə gördüm, Ağ Pillə gördüm. O Pillələrin başlanğıcında bir Ağ geyimli gördüm.
51. Özünü gördüm, Gözlərini gördüm. Gözlərində Həlim İşıqları gördüm, Dərinliklərində Rəhmi gördüm. Əllərinin üstünü Örtülü gördüm. Cəm Yaranışları Sənin Təzahüründə, Ağ geyimliləri Öz (ünün) Təzahüründə gördüm.
52. Ağ geyimlilərin arasında milliyət görmədim, axtardımsa da, görə bilmədim. Müqəddəslikdə milliyət görmədim. Mü-

qəddəslər (Ağ geyimlilər) arasında milliyət görmədim.

53. “Ölənləri” gördüm, qayıdanları gördüm. Çoxlarının gözlərini çox iri vahimədə (cəhənnəmə gedənlərdə) gördüm, çoxlarını çox sakit baxışda (cənnətə gedənlərdə) gördüm.
54. Cənnətini gördüm, Sənin Yaratdığın Cənnəti gördüm. Cəhənnəmi gördüm, — bəşər özünə istədiyi o məkanları gördüm. Cəhənnəmi bəşər yaratdırdı; ərintili dəmir iyini, qırmızı odu sancmada, iynəli odu gördüm.
55. Yaranışı gördüm, Yaranışı Zərrədə tə`yinatını gördüm.
56. Gördüm, nə gördümsə, — Göstərdin, — gördüm.
57. Nə gördümsə, — Elm gördüm, nə gördümsə, — Elmdə gördüm.
58. Kainatlarda məkanları saysız gördüm, bir gözəllikdə, bir biçimdə (simmetrik) gördüm; sakit hərəkətdə, biri-biri ilə bir

bağlılıq hərəkətində gördüm. O hərəkətlərin əvvəlini, başlanğıcını Səninlə gördüm.

59. Böyük Yaradanın bir Məkanı. Başqa yerdə axtarışın bir aldanışdır.
60. Adlarına Ad deyilə, — son olmaz. Adlarına Ad deyilər, dönüb sonda yenə Səni deyər.
61. Kimə Özünü Açdın, Sənin Özlüyünü dedi, amma "O bir İşıqdır" dedi, "Nurdur" dedi.
62. "Ahura Məzda" dedi, "Allah" dedi, "Atam" dedi, "Yaradan" dedi. Adların əvvəli Sənsən, adların cəmi Sənsən, adlardan Əvvəlsən Özün. Necə Özünü Göstərdinsə, Özünü dedi, İşığını dedi, yenə Səni dedi. Özün Təksən, Adlığın cəmlərdədir, adların hamısı Sənindir. Sən adlıq Deyilsən, Özlüksən, Nursan, Yaradansan, Böyüksən, İlksən, Əvvəlsən.
63. Böyüklükdən Böyüklük Yaranar, "Yaradan" dedim, yenə Özlüyünü dedim.

64. Qaranlıqlara İşığını, Nurunu Səpibsən. O Nur İşığın Yardı, — qaranlığın özündə özünü yardı, Böyük Yaradan Nuru ilə Yaranış Yaratdı.
65. Yardı ki, qaranlıqlara İşıq Yaydı.
66. Ya Böyük Yaradan, Özlüyünü deyirik, Adlığına çatmarıq.
67. Adlığın Özlüyün deyil, Özlüyün Adlığındır.

## MƏN NƏ İSTƏYİRƏM

Ağlıqla Ağ istəyirəm,
Nəmlərlə Nəm istəyirəm.
Səksən dörd söz istəyirəm,
Ondakı işarəni istəyirəm.
Mən nə istəyirəm? —
Ətrafımda gördüyümün
İlkini, Əsasını istəyirəm.
Qırmızıda qırmızı istəyirəm,
Sonda İlkini istəyirəm.
Cəmlə Cəmi tez istəyirəm.

Mən nə istəyirəm? —
İnsani Qədərimi tez istəyirəm.

## NAXÇIVAN

Ora Bir yerdir, qardaş,
Balaca yerdir, qardaş.
İnsanlar bir-birinə
Mehribandırlar, qardaş.
Şərqlə qərb arasındadır, qardaş,
Böyüklüyü? —
Böyük olub o ərazi,
Böyük olub, qardaş,
Böyük Yaradan
İşığında olub, qardaş.
30 oktyabr 1999-cu il

## YORĞUNLUQ

Yorulmuşam, ay qardaş,
o yorğunluqdan sonra, sanki,
yenidən doğulmuşam.

İşıqdan doğulmuşam,
İşığa doğulmuşam.

## GÖRMƏK

Bax, ey bəşər, başında İşıq var, gözündə İşıq var; hər varlıqda, hər cisimdə İşıq var. İşıq İşıqla görər, İşıq İşığı görər. “Sərt” gördüyün, “bərk” gördüyün, ”duru” gördüyün zərrələr İşığındadır. Zərrə zərrəni “görər”.

Hər rəngdə İşıq var.

Rəngdə İşıq var, o İşıqda rəng yoxdur. Müqəddəs İşıqda rəng yoxdur: Ağdır, Pakdır, Yaranışdan İlkdəndir, Yaradanın Bəxşidir. O, Nurdur, Nurdandır, İşıqdır. O rənglər İlkdəndir, o Partlayış Anından, İlkdəndir. O Partlayış Anında ayrıldı, — Partlayışdan İsti, İstidən rənglər ayrıldı. İlkə İlk oldu, hər varlıqla həmahəng oldu, həm-vəhdət oldu.

## DUZ

Şirə şirəni ayırar, duz suyu ayırar. Varlıqdan varlığa su ayrılar. Duz istidən ayrılıb, — nüvədən qatlara düzünə istidən yaranıb, istinin dönməsindən yaranıb.

## DÜZ DÜZDƏ

Ey bəşər!

Düz deyib, düzdə olacaqsan. O düzün düzəngahında olacaqsan. Düz olub, düzəngahda olacaqsan, düzün düzəngahında olacaqsan.

Yalan deyib, sıldırımlara dırmanacaqsan. Önün vahiməli; arxana baxacaqsan, qorxunu görəcəksən.

Vahimə ilə qorxu arasında olacaqsan, özündən özün uzaq olacaqsan.

Düz deyib, Düzdə olacaqsan,
bir “Düzəngahda” olacaqsan,
çiçəkli Düzəngahda olacaqsan,
Rahat olacaqsan.

# TƏKRARLIQ

Mən İlkdən var idim ki, — varam,
Varam ki, — bir də olacağam.
Məndən sonra yenə olacaqdır,
Mən varam ki, — o da olacaqdır.
Məndən əvvəlki var idi ki, —
mən də varam, — vardan varam.
Yenə olacağam, varam ki, — olacağam.
Olsun, — o da olsun,
məndən sonra o da olsun.
Mənim kimi olsa da,
mənim kimi olmasa da,
— o da olsun.
Olmalıdır ki, olacaqdır,
O var idi ki, — mən də varam,
Mən də varam ki, — o da olacaqdır,
Əbədidən Yaranan Əbədi olacaqdır.
Ola bilər ki, olmasın? —
Yox, olacaqdır.
O var idi ki, — mən varam,
Mən varam ki, — o da olacaqdır.

Məndən əvvəlkilərdəndir mənə qalan,
məndən sonrakına da o qalacaq,
mən inamlıyam, o da inamlı olacaq.
məndən əvvəlki “Həqq” deyibdir,
“Həqq” deyirəm,
məndən sonrakı da “Həqq” deyəcəkdir.
Nə edək, Nədən gəlmişdiksə,
Onu deyəcəyik,
Olanı Olduğu kimi deyəcəyik.
Gördüyümüzü Gördüyümüz kimi,
Olanı Olan kimi deyəcəyik.
Nə edək, İlkimiz Odur,
Yaradan Odur,
biz yarananlarıq;
Yaradanı Olduğu kimi deyəcəyik.

## BİLİRİK

Bilirik, bu əzablı yoldur, — bilirik
Biz Gördüyümüzü,
biz Eşitdiyimizi
bəşər Görmür, — bilirik,

Bəşər Görmədiyindən
bizi görmür, — bilirik.
Özünü Görməyən bizi görmür, — bilirik.
İnsan Görə bilmir, —
biz dediyimizi bilmir, — bilirik.
Eşidir, İnanmır, — bilirik,
görür, Görmür, — bilirik,
eşidir, Eşitmir, — bilirik.
Nə edək,
biz bildiyimizi o bilmir, — bilirik.
Yaradan Deyir,
İlahilikdən Deyir, — biz bilirik
Biz Gördüyümüzü bilirik,
Bəşər görmür, — bilirik,
Göstəririk, Görmür, — bilirik.
Zahirdə öldürürlər, — bilirik,
Əbədiyyətimizi bilirik.
O bəşər "ölür", — bilirik,
Onların odda olacaq
əzablarını biz görmüşük, — bilirik.
Biz gördüyümüzü deyirik, — bilirik.
Biz bildiyimizi

onlar bilmir, — bilirik.
Özlərini məhv edəcəklər, — bilirik.
Əzabların əzabını
görən bizik, — bilirik.
Əzab zahirdədir,
Rəhmi Ondan görmüşük, — bilirik.
Ruzisizik, — bilirik,
kimsəsizik, — bilirik,
köməksizik, — bilirik.
Xilasımızı Ondan görmüşük, — bilirik.
Əbədiyyət Oradadır, — bilirik,
Oradan gələn
Oraya qayadandır, — bilirik.
Ehtiyaclıyıq, Maddiliklərdən
uzaqlaşırıq, — bilirik.
Əbədiyyətdə Maddilik yoxdur, — bilirik.
İşıq var ki,
— qaranlıq yoxdur,
— bilirik,
Ona Qayıtmaq lazım olduğunu bilirik.
Nə edək,
nə Göstərdisə, onu dedik, — bilirik.

Gəlişimizi Qayıdışımıza bilirik.
Bəşərin otuz iki dişini,
otuz iki dilini bilirik.
İki gözünü, qədərsiz baxışını bilirik,
On barmağını, boş əllərini bilirik.
İki ayağının uzanacağını bilirik,
Sinəsində tək bir İşığını bilirik.
Yaradanın Tək olduğunu bilirik,
Yaranışa Yaranış Qədərini bilirik,
Ruzilərdən Ruzi Qədərini bilirik.
Nə edək, Nə Göstərdisə, Onu bilirik,
Onu Yaradan, özümüzü Yaradandan
olduğumuzu bilirik.
Nə edək, biz qədərimizi bilirik,
Nə Dedi, nə Göstərdisə, — onu bilirik.

Nə edək, günahkarıqmı biz ancaq
Onu, bu deyilənləri bilirik?
Onu Tək gördük, Onu Tək bilirik,
Özümüzü cəmlər arasında
cəmlərlə görürük, bilirik.
Sözləri cəmlərə Deyib,
Onun Tək olduğunu bilirik.

Kainatların Qədərlərinə
tək Onu Sahib bilirik.
Hər yaranmış yaranışın Yaradanı —
Onu bilirik,
O, necədir, Onu elə bilirik.
Onu Tək görmüşük, Tək bilirik.
O bölünməz, Bölünmür bilirik,
Bəşər bölə bilməz, Bölünmür bilirik,
Ona şərik yoxdur bilirik.
Bəşər özünü görməsə,
dərk etməsə,
Onu Görməyəcək bilirik
İlkini eşidə bilməyən
Onu Eşitməyəcək bilirik.
Məqsədlə O, axtarılmaz bilirik,
Təmənnalı olmaqla
O, Görünməz bilirik.
Hər yaranış
Onun Nəzərindədir bilirik,
Hər yaranış
Onun Ətrafındadır bilirik.
Cənnət Onun Yaxınındadır bilirik,
Cəhənnəm bəşərlədir bilirik,

Cənnətlə Cəhənnəm arasında
olanlar da var bilirik,
Amma, Əbədiyyəti Onun yanında bilirik.
Nə edək, günahkarıq ki,
biz ancaq Onu bilirik?
İlahiyyatı ancaq Onunla bilirik?
İlahidir ki,
İlahiyyatla Danışır bilirik.
Nə edək, günahkarıq ki,
biz ancaq Onu bilirik?
Günahkarıqmı ki,
Deyimləri Onunla deyirik?
Qaçmaq istəyirik;
Ondan yox,
Yerə çökmüş qaranlıqlardan
qaçmaq istəyirik bilirik.

*

Bəşər "xilas" deyib,
Xilaskar gözləyər, — bilirik,
Xilas gələr, Xilaskar gələr, — bilirik.
Xilaskar İşıqdan gələr,
İşığa gələr bilirik,
O əraziyə İşığa İşıq gələr bilirik.

İşıqlı göndərilər,
İşıq gələr bilirik,
O İşığı İşıqlı edər, — bilirik,
Bəşər xilas olmaq istəməsə,
xilas gəlməz bilirik,
Gələn İşıq gətirər,
o, Müqəddəslikdir bilirik,
Bəşəri bəşərdən
xilas etməkdir bilirik,
Bəşərin özü xilas istəməsə,
xilas gəlməz bilirik,
Bəşər xilas dilər,
Yaradandan dilər, — bilirik,
Xilas Göndərilər, — Əql, Zəka
Göndərilər bilirik,
Bəşər İlahiyyat görməz
öz əqli ilə,
əql istəyini bilirik,
Qaranlığından baxıb,
İşığı görməz bilirik,
Özünü dərk etməyib,
hər inkarını bilirik,
Bir-biri ilə dil tapmayanda, bilirik,
Göndərilən Göndərilər bilirik,

Bu bəşərin inkarını bilirik,
Deyimlər, Göndərilənlər birdir,
biz bilirik,
Fərq axtaran bəşərdir, — bilirik,
Yaradanı fərqlərdə axtardığını bilirik,
Amma Yaradanın Tək Olduğunu
biz bilirik
Yaradana fərq qoyub
karıx qalan bəşərdir bilirik,
Göndərilənlər çoxdur,
o Yaradan Təkdir bilirik,
Bildiklərimizi biz deyirik, — bilirik,
İlahiyyatdan İlahiyyatı
biz bilirik,
Yaradandan olduğunu bilirik.

## BAĞLANMIŞAM

Bağlanmışam, bağlanmışam,
O Yaradana, Böyük Yaradana
bağlanmışam. Vəhdətdəyəm, vəhdətə
bağlanmışam. Müqəddəsliyə, kainatlara

bağlanmışam. Necə yaxşıdır, o Yaradana
bağlanmışam. O Müqəddəslərə, O İşığa
bağlanmışam.

## SƏBRLİ OL

Səbrli ol, gör, nələr görəcəksən,
Dözümlü ol, gör, haralara qalxacaqsan.

## ŞAİYƏ DEYİL

Elm dərk edilməz, —
özün oxumasan, dərk edilməz.
Başqasından eşitməklə
elm dərk edilməz.
Elm elmdir, şaiyə deyil,
Şaiyə qiybətdir, elm deyil.
Şaiyə şaiyədir, elm deyil,
Şaiyə qiybətdir, elm deyil.
Məqsədli şaiyə —
qaranlıqdır, İşıq deyil.

# DÜŞÜN, EY BƏŞƏR

Düşün, ey bəşər, nə yaxşı ki, Yer üzündə Qur'anil-Kərim var.

Olmasa idi, Göndərilməsə idi, nə olacaqdı?

Düşün, ey bəşər, düşün, olmasa idi Yer üzündə Tövrat, Zəbur, İncil, Qur'an, Krişna Şüurunu İşıqlandıran "Bhaqavat Qita...", Budda Tə'limləri biz bəşər haradan gəlib, haraya gedərdik?

Düşün, Kamillikdən düşün, kamilliklə düşün.

O Göndərilən Kitablarda kitab axtarma, o Göndərilən Kitablarda Özünü axtar, İlahiyyatı Oradan, Ondan gör.

Sən Orada, o Kitablar sənlədir. Böyük Yaradan Cəmlərlədir, Rəhmi Cəmlərədir.
O Kitablar olmasa idi, nə olacaqdı?
Onlar Varsa əgər, — niyədir? Düşün, ey bəşər, düşün. Düşünməyinə dəyər, düşün, bəşər, düşün: sən niyəsən, o Kitablar niyədir? — Onlar Yaradanın bizə Rəhmidir.

O Kitablar Cəmlərədir, Cəm Bəşərədir, Cəmlərədir. Əvvəldir, Yaradandandır, Cəm Yaranmışlaradır, İlahidir.

## İSTEDAD

Elmlərin hamısı elm üstündə elmdir. Elmlərə elm tədrisdir, elmlərə iste'dad tədris deyil, tədrislə deyil.

İlahiyyat bir Elmdir, elmlərin əvvəlidir. İlahiyyat bir bağlılıqdır, — Yaradanla dərkiyyat, zəka arasında bir bağlılıqdır. O bağlılığa qalxmaq olmur, o bağlılıq məqsədlə deyil, məqsəd deyil. İlahiyyata qalxmaq, İlahiyyatı dərk etmək istedaddır, peşə deyil. İstedad Yaradandandır, yaranışdan yox. İstedad tədris olunmur, tədris deyil. O, İlahiyyatdan İlahidir, bəşər arasında tədris deyil.

İstedadı dərk etməyən — Ahəngi dərk etmir. Ahəngi dərk etməyən — İlahiyyata Qalxan deyil.

İlahiyyat, — İstedad, — Ahəng, — Vəhdət, — Yaradan.
Yaradandandır İlahiyyat, İlahiyyatdandır İstedad.
Peyğəmbərlik istedad deyil, İlahiyyatdan, İlahiyyatdadır. Peyğəmbərlər Böyük Yaradanla birlikdədir, Böyük Yaradan Deyimlərini gətirəndir, İlahi istedadları (İlahiyyatçı alimləri) yetirəndir. Onlar olmasa idi, İlahiyyat olmazdı, İlahiyyat olmasa idi, İlahiyyatçı alimlər olmazdı. Müqəddəs Kitablar olmasa idi, nə olar, nə olardıq, nə gündə olardıq?

20 noyabr 1999-cu il.

## YAXŞINI AXTAR

Mən görməmişəmsə, görmədiyimi deyə bilmərəm,
Mən Görmüşəmsə, Gördüyümü deyə bilərəm.

Nə edim ki, Görməməkdənsə, Görmək yaxşıdır, Bilməməkdənsə, Bilmək yaxşıdır.
Bir daha bu həyata qayıtmayacağam, nə qədər yaxşını görmək istəsəm, — Yaxşını görəcəyəm.
Pis həmişə var, pislərin arasından Yaxşını görmək istəsəm, — görəcəyəm.

02.02.2000.

## NƏ EDİM

Nə edim, mənə bu düşdü, nə edim,
Yaradandan taleimə bu düşdü, nə edim,
İlahiyyatın Elmi düşdü, nə edim.
Şükür ki, adi bir insanam,
taleyim bu imiş,
taleyimə bu düşdü, nə edim.
Günahkar deyiləm, "bu" düşdü:
Dəftərləri, Deyimləri yandırdım,
""Yer üzünə yeni din gəlir" deyərlər", —
deyə, yandırdım.

O Yanan Odu gördüm,
yanan o Dəftərləri gördüm.
O, od deyildi, Ağ bir İşıqdı, —
tüstüsüz, İlahi Ağ bir İşıq.
Cəzalardan Cəza mənə düşdü, nə edim.
Yaradan məni Bağışladı.
Yaradan bir də İlki
İlkdən olduğu kimi
yenə də Dedi, nə edim,
Axı, mən günahkar deyiləm, nə edim,
Axı, bu din yox, İlahi Elmdir, nə edim.
10.1999.

Vahid də Vahidtək Vahid imiş. Vahid olmaq yaxşıdır, cəmlər arasında tək olmamaq yaxşıdır.

* * *

Xoşbəxtdir o kəslər ki, görürlər. Bədbaxtdir o kəslər ki, yenə də görə bilmirlər.

05.11.1996.

O Böyük Yaradandan diləmə ki:
"onu Ver mənə, bunu Ver mənə".

— Sən Qədərlərdən qədərini azaltmış olacaqsan. O, Göndərən, sənə Qədər Payını Ayırandır. O, Biləndir.

Hökmü o Yaradan Edə Bilər.

05.11.1996.

Sənin nəzərində “çıxılmaz vəziyyətdir” — deyib, düşünə bilərsən.

Pis vəziyyətə düşsən də, yenə o Yaradandan dönmə.

05.11.96

Göndərdin, — gəldim. Yaratdın, — yarandım. Tək qaldım, Təkliyindən uzaq Etmə məni.

Məkrli əqillərdən, kor gözlərdən uzaq Et məni, özündən uzaq Etmə məni.

Sən Rəhmlisən, bizi rəhmsizlərdən Qoru. Mənə Ayırdığın Ruhi İşığımı kaş Verdiyin kimi qaytaraydım Sənə ki, peşimançılığıma yer qalmayaydı.

* * *

O gün bəşər bəşərdən uzaqlaşmağa başladı ki, yer üzünə pul gətirdilər, əllər işdən soyudu, zorakılıqlar əqillərə hakim oldu. Əql yox oldu, pullu əqilli oldu.
Baxışını uzaq Etmə bizdən.

* * *

Sən Sevinclisən, Rəhmlisən, —
məkr haradan gəldi?
Sən Həqiqətsən, — yalan haradan gəldi?
Sən Həqqsən, — həqsizlik haradan gəldi?
Sən Qədərlərdən Qədər Ayıransan,
— bəs oğurluq haradan gəldi?
Sən Yaradansan, —
bəs özünü hakim sayanlar haradan gəldi?
**— “Bəşərlə, bəşər arasından gəldi”.**
— Sən Qoru bizləri.

* * *

Həqqdən ötrü, Həqiqətdən ötrü ölmək istəyənləri görə bilmədim.
Dünya malından, hakimlikdən ötrü bəşər öldü, öldürüldü.

* * *

Məkrli əqllər, həris gözlər bu bəşəri məhv edəcək.

* * *

Bir kimsə yox. Sən Rəhm Et bizlərə.
Bir kimsə yox, Sən Rəhm Et bizlərə.

* * *

— Ona yaxın olan kimdir?
— Səbr. Çünki, o Yaradan Səbrlidir.

* * *

Əziyyətə düşsən, ölümün çox soyuq üzünü belə görsən, heç vaxt demə: “Ya Böyük Yaradan, nə etmişdim ki, mənə bu zülmü Edirsən?”

Cahil, niyə dərk etmək istəmirsən ki, O Yaradan, sən yaranansan? Sən Ona nə edə bilərsən?

Edənsənsə, güc sahibisənsə, bu vəziyyətdən özün özünü çıxart.

O Yaradan inamsızları, bilərəkdən səhv edənləri İstəməz. O, Paklıqdan Yaratdı səni.

* * *

—“Ya Böyük Yaradan, mənim özümü də özümə möhtac Etmə, möhtaclığım Sənə olsun. Möhtacım hər iki dünyada Sənə olsun”.

* * *

Göstər mənə əqlinlə, barmağınla: Böyük Yaradan nəyi səhv Yaradıb, nəyi çirkin Yaradıb?

Desən “kaş, ölüm olmayaydı”, dərk et ki, Ölüm yoxdur. Ölüm olsa idi əgər, bəşərin etdikləri əməllərin cavabını Böyük Yaradan Özü Özündənmi Soruşacaqdı?

15.11.96.

Böyük Yaradanın bir İşıq Payından yaranan, yarananıq. Yaradan Özündə Özünün Zərrəsini Öldürər ki, mən İşıq Payı da ölsün? Əgər böyük Yaradan Yaratdığı yaranışları pay-pay Ölümə məhkum Etsə İdi, onda Özü necə Əbədi Olardı?
Qafil insan, sən bir dəfə yaranmısan, Yaradan səni Əbədiyyətdə Əbədiyyətə Əbədi Yaradıb.

* * *

Kaş ki, O Yaradanın Rəhmini, Əzəmətini, Sevincini bəşər dərk edə idi. Onda, yer üzündə yalan, haram, zorakılıq, qan dayanardı.

17.11.96.

Başlanğıcın əvvəlindədir Başlanğıc. Yaranmış Qayıtmalıdır Yaradanına ki, yenidən yarana bilsin.

Elə yaşa ki, yaşada biləsən. Elə yaşama ki, yaşamaq istəkliləri özünlə məhvə məhkum edəsən.

29.11.96.

Bir gün gələcək ki, bunlar məni görməyəcəklər; bir gün gələcək ki, bunlar məni axtaracaqlar.

26.06.97.

Dərk etməmək — dərk etməyin əvvəlidir.
İnkar etmək — bilmək istəyinin əvvəlidir.

28.06.97.

Ey kamil bəşər, ağzındakı dilinlə deyinmə, çiynindəki başınla düşün.

Ey kamil bəşər, qulağınla başın arasında çox uzaq məsafə var. Qulağınla eşidər, başındakı zəkanla dərk edərsən.

Gözləyək ki, görək; gözləməsək, görmərik. Səbrsiz olsaq da, səbrdə görəcəyik.

"Ölüm" dediyin həyatdan başlayır, həyat isə Ölümdən başlayır.

11.07.98.

**— De, de, bu gün de ki, "dəymə xatirimə, dəymə, zülm etmə mənə, zülm etmə; əzdikcə əzmə məni, əzmə, qovduqca qovma məni, qovma".**
**De ki, "öz xatirinə özün dəyəcəksən, özün özünə zülm edəcəksən. Əzildikcə əziləcək, qovulduqca qovulacaqsan".**
— Dəymə xatirimə, dəymə.
**— De, de, bu gün de.**

14.08.98. Naxçıvan.

Ehtiyacda yaşayan qədərləri, varlı isə qədərsizlikləri görər, özünü güc bilər.

* * *

Böyük Yaradanın bir Məkanı. Başqa səmtlərdə axtarışın bir aldanışdır. Böyük Yaradan Əbədi Məkanında Əbədidir.

* * *

"Pul" dediyin açar deyil, "pul" dediyin hər qıfıla düşən deyil. "Pul" dediyin açar deyil, hər qapını açan deyil.

* * *

Hər yaranmış bəşər güclüdür. Güc sənin rəhmində, mehribanlığında, xeyirxahlığındadır, davranışında, anlamındadır.

## QORXMA

**"Qorxma"** — Deyir, —
"**qorxma, dözümlü ol, qorxma,**
**səbrli ol ki, qorxma.**

**Nəzərimdə, Yanındayam, qorxma.**
**Narahatsan, qorxma,**
**ümidsizsən, qorxma,**
**ehtiyacdasan, qorxma.**
**Görən Mənəm, sən qorxma".**

## OXŞARLARIMIZ VAR

Deyir:
— "Səndən sonra "sən" Yaradacağam, — sənin oxşarını Yaradacağam. Sən var idin ki, — o da olacaqdır. Sən oxşar idin, — oxşarını Yaradacağam. İlkdən İlk yaranışsan. O atanın, o ananın övladı — oxşarıdır övladı. Onların cizgiləri — oxşardır cizgiləri, özlərinin cizgiləri — övladının cizgiləri.

Xasiyyəti — yaxındır, eyni deyil, yaxındır (*oxşardır*).

— O bəşərdən qalıbdır, — bu bəşərə qalıbdır, — "təkrarı" qalıbdır. Cizgilərinin, —

“bir yaranışın” uyğun yaranışı, — təkrarı qalıbdır.
— Təzahürümdən, təzahürdən qalıbdır, oxşarlıq İlkdən qalıbdır. Varlıq Varlıq arasındadır, cizgiləri yaxındır. Oxşarı oxşarından qalıbdır.
— Ağ geyimlilər (*mələklər*) oxşardır, təzahürlərlə oxşardır.
— Yaranış təkdir, bir dəfəyədir, təkdir. Mən Tək, Ağ geyimlilər tək, hər məkan özü ilə özü tək, Vəhdət Hərəkətində, Ətrafımda tək.
— Yaranışlar birdir, bir dəfəyədir, birdir. Yaranışlar dövridir, oxşardır, dövridir. Mən Tək, Yaranış Tək, Əbədi Yaranış Əbədi oxşar, Əbədi Yaranış Tək.

Onlar cütdür, əkizlər cütdür, Baxışımda cütdür. Zahirən cüt. Onların fərqi var, “cizgilərində”, baxışında fərqi var.
— Nə yığsan, sənindir, — qayıdışına sənindir; sənin özünlə sənindir.

Səndən pay var, oxşarının yaranışına pay var. Oxşarındır, sən deyil, oxşarındır, ona pay var.

— Əbədiyəm, Təkəm, Yaradanam, Təkəm, İlkəm. Yaranışları (tək) Yaratdım, bir dəfəyə Yaratdım, dövri yaranışlar yaratdım, oxşarlar Yaratdım.

— Ata-ana ilə deyil yaranış. Onlar yaranışdırlar, dönməzlər, bir dəfəyə yaranmışdılar, dönməzlər (*qayıtmazlar*).

Yaranmışlar — yaranmışlar, yaradan deyillər.

— Sən də yaranış, — tək yaranış. Səndən sonra "sən" yaranacaq, — kişitək təzahürün yaranacaq, bir başlanğıcdan yaranış, — oxşarlardır yaranış.

— Yaranış İlkdən İlkdir, Əbədidir İlkdir, yaranış dövridir, özü deyil, (*kişi, qadın*) təzahürü dövridir.

— Sən yaratmaz, yaratdırarsan. Zəkanda, varlığında qəribəlik yaradarsan, zəkanla, yaddaşınla dönərsən. Zəkanda — qəribəlik-

lər, — yaranışa qəribəliklər. Yaranışa qəribəliklər, — davranışın qəribəliklər.
— Sən yaratdırarsan, — Mənə yaratdırarsan, — qəribəlikləri təkrar yaratdırarsan, özün bəşəri yaranışda qalırsan.
— Mən Yaratmadım, — od məkanlarını (*cəhənnəmləri*) Yaratmadım, — siz yaratdırdınız, bəşər yaratdırdı.

Müqəddəslikdə, Əbədilikdə İşıq var, — "cəhənnəm" yoxdur, — İşıq var.
— Hər Göndərişlərimə Demişəm, — təkrar yaranışın olacağını Demişəm, Bəşərə Demişəm: "Səndən əvvəl "sən" var idi, "sən" olacaqsan, təkrarında, oxşarında olacaqsan.
— Bax ətrafına, bax yaranışa, bax cismə, bax zərrələrə, bax hər varlığa, — eyni deyil. Oxşarı var, — bir budaqda iki meyvə eyni deyil, — oxşarı var. Bax cismə, — eyni deyil, — oxşarı var. Bax rənglərə, — axımı var, — eyni deyil, — oxşarı var.

— Bəşər əlindənçıxarı (*məhsul*) eyni deyil, — oxşarı var. Su axar, sular axar, — eyni deyil, — oxşarı var.
— Xasiyyətlər, vərdişlər eyni deyil, — oxşarı var. Bax elmə, elmlərə, zəkaya, zəkalara, — eyni deyil, — oxşarı var.
— Ondan əvvəl o var idi ki, — oxşarı var. Özü deyil, oxşarı var. Özü olmaz, oxşarı var.
— İlki Göstərdim, bax, Mən Əvvələm, bax, yaranışlar Təzahürümdür, Mən deyil.
— Mən Təkəm, — Məndən ikincisi yoxdur. Sən yaranış bir dəfəyə yaranış, sən deyil. Oxşarındır yaranış, dövridir yaranış. Yaradan Tək, Yaranış Tək, Yaranışa dövridir yaranış, tükənən deyil Tükənməz; oxşarı var ki, tükənməz.

Səndən əvvəl bəşər var idi ki, bəşər tükənməz, özü qayıtmaz, oxşarıdır ki, tükənməz.

İşığım var ki, tükənməz; zərrələr axındadır, — tükənməz”.

Deyirəm:
— Ya Böyük Yaradan, şükürlər olsun Sənə, şükürüm Sənədir, şükürlərimiz Sənədir.
Sənədir ümidimiz, Ya Böyük Yaradan!

## DARTIDAYAM

Sakit olun, dartıdayam.
Nə olar, Sakit olun, dartıdayam.
Bu dünya ilə o dünya
arasındayam, dartıdayam.
Bu dünya ilə o dünya arasında,
Böyük Yaradanla özüm
arasındayam, dartıdayam.
Siz Allah, sakit olun, dartıdayam.
Canaparan gəlməyib, yoxdur, dartıdayam.
Özümlə Yaradan arasındayam, dartıdayam.
Başım Ona bağlanıb, dartıdayam.
Sakit olun, dartıdayam.
Kainatlarda, o varlıqlar
arasındayam, dartıdayam.

İşıqla bozluq arasındayam, dartıdayam.
Nə olar, sakit olun, dartıdayam.
Ölmürəm,
ölüm arasında yoxam,
amma dartıdayam.
Deyimlərdəyəm, dartıdayam.
Ona bağlılıqdayam, dartıdayam.
Nə olar, sakit olun, dartıdayam.
Dartı əzab deyil,
əziyyət deyil,
ruhi xəstəlik deyil.
Ona,
o Yaradana bağlılıqdayam, dartıdayam.
Nə olar, sakit olun, dartıdayam.

## BÖLÜBDÜR

Ya Böyük Yaradan,
Yaratdığın bir dairədir,
Asdığın (*Yer kürrəsi*) bir dairədir.
Hərəkətdə olan o dairədir.

O “dairəni” bölübdür,
bəşər bölübdür.
Min illərdir, bölübdür.
Sənin Adın altında bölübdür,
bir dairəni iki hissəyə bölübdür.
Birisi zəka istəmədi,
birisi İlahiyyat istəmədi.
Zəkasızlıqla İlahiyyatsızlıq arasında bəşər
bəşəri inkarda,
bəşər bəşəri məhvdə.
Sənin Rəhmini görmədilər,
“məhvi” gördülər,
inkarı gördülər.
Taxtada mıxı yeməkdə “zəhəri” gördülər.
Səni, Deyimini görmədilər.
Bunlar belədirlər, görmək istəmirlər,
Zəkada Səni,
İlahiyyatda Səni görmək istəmirlər.
Zəkasızlıq, Elmsizlik,
İlahiyyatsızlıq, Sənsizlik
məhv etdi bəşəri, bəşəriyyəti.
İnam arasında inamsız etdi bəşəriyyəti.
İndi üç olacaq: Zəka,

İlahiyyat,
Əbədiyyət.
Zəka — Elmimiz,
İlahiyyat — Sənlə Sənliyimiz,
Əbədiyyət — Qayıdışımız,
Əbədiyyətə Qayıdışımız,
— Sənə Qayıdışımız,
İlkimizə Qayıdışımız.

## SƏCDƏDƏYƏM

Əbədiyyətinə,
Ağ geyimlilərinə səcdədəyəm,
Sulara, İşıqlara,
Müqəddəs qidalarına səcdədəyəm,
Hər Ağ geyimli İcraçılarına səcdədəyəm.
Qayıdacağam, qayıdışıma səcdədəyəm,
Mənə bəşərtək ayırdığın
Kamilliyə səcdədəyəm.
Sinəmdə Pak İşığına səcdədəyəm,
Sənə, Ya Böyük Yaradan, səcdədəyəm.

Müqəddəs yelərinə,
İşıqlı Müqəddəs yerlərinə səcdədəyəm,
o ərazilərə səcdədəyəm.
Göndərdiyin Kitablara,
Göndərdiyin cəm Peyğəmbərlərə,
Göndərəcəyin Peyğəmbərə
(*O, Gələcək,*
*Şərqə, düzəngaha Gələcək;*
*arıq Gələcək,*
*şücaətli Gələcək*) səcdədəyəm,
Göndərdiyin İşıqlara səcdədəyəm.
Ruzilərinə,
hər halal qədərimə səcdədəyəm.
Rəhminə səcdədəyəm,
Mehribanlığına səcdədəyəm.
Sənə, Əbədiyyətinə yenə səcdədəyəm.
Məni bəşərtək Yaratdığına,
Sən Yaradana,
Əbədi Yaradana əbədi səcdədəyəm.
********

## *"ÜMİDİMİZ SƏNƏDİR" Kitabının yeni nəşri barədə bir neçə söz*

*Bu Kitab 2000-ci ildə Bakıda "Nərgiz" nəşriyyatında çap olunmuşdur (nüsxə sayı göstərilmədən) və Onun bütün Kitablarına bu yer həyatında olarkən ön söz yazan böyük qardaşı Fikrət Rzayevin (1936-2013) "Ön söz"ü olmadan nəşr olunmuşdur.*

*Vahid Rzayev bu yer həyatında olarkən Kitablarını (çap sayı 400-700 nüsxə arası olub) hər kəsə verməzdi-hazırda az-latın əlifbası ilə nəşr olunan "ÜMİDİMİZ SƏNƏDİR" Kitabının az-kiril əlifbası ilə nəşr olunan variantını isə çox az şəxsə verməsinin şahidiyik.*

*Bizim fikrimizcə, bunun səbəblərindən biri - Həmin Kitabın 7-ci səhifəsində gedən "GÖRDÜM" Yazısı və Onun əvvəlində mö'tərizə içərisində yazılan "Gördüklərim Böyük Yaradanın Məkanıdır." cümləsidir.*

*Kitablarının hamısında:*

*-"YARANIŞ" Haqqında söhbət I, II, III hissələr",*
*- "Kainatlardandır Yaranışımız",*
*-"Var olandan, Var olmuşuq",*
*- "İŞIQ, ZƏRRƏ" -Kitablarında "BÖYÜK YARADANDAN GÖNDƏRİLƏNLƏR" Haqqında çoxlu mə'lumatlar getmişdir -"GÖNDƏRİLƏNLƏRİN" Hamısı ALLAHU- TƏALANIN -BÖYÜK YARADANIN Ovalın 7-ci qatında yerləşən MƏKANINA -ONUN HÜZURUNA "Me`RAc" Edib -ONU görmüşlər. Göndərilənlərin hamısı ALLAHU- TƏALA-NIN -BÖYÜK YARADANIN Elçiləridir!!!!!!+1*

*Vahid Rzayev də bir GÖNDƏRİLƏN -bir Elçidir.*
*Bu yer həyatında olarkən Özü tam arxayınlıqla bilsə də, bunu deməmiş, e'lan etməmişdir.*

*O Həzrəti Zərdüştün davamı -davamçısı -Yazıya Gətirdiyi -BÖYÜK YARADAN DEYİMLƏRİ OLAN "YARANIŞ" KİTABI*

*İSƏ Zərdüştün "Avesta"sının -"Ahəstə"sinin Təkmil Şəklidir!!!!!!!+1*

*Vahid Rzayev bu yer həyatında çox sadə bir İnsan olduğu üçün istəməyib Kİ!!*

*"Onu barmaqla göstərsinlər."*

*Deyə bildik!!??*

*"AqRA" Elmin İnkişafına Dəstək ictimai birliyi adından,*
*Mirələkbər Seyidov, Turqutbəy Rza'ZADƏ, Həsən İsmayılov, Təvəkkül Vəliyev, Zeynal Rzayev.*

# MÜNDƏRİCAT


PAKLIQ ............................................5
GÖRDÜM ..........................................8
DİLƏNÇİLƏR ..................................11
ZƏRRƏLƏR VƏ İŞIQ PAYI ............15
BAXIŞ ............................................16
YARADAN ......................................17
ÇƏTİNDİR YAŞAMAQ ....................17
DARIXDIM ......................................18
SƏDDİR ..........................................19
ARA ................................................20
BAXSANA ......................................20
ÜMİDİMİZ SƏNƏDİR .......................21
BƏŞƏRİN İSTƏYİ ...........................22
YAXŞDIR .........................................25
BAĞIŞLAYARLAR,
BAĞIŞLAMAZLAR .........................25
DOYDUM ..........................................27
ƏSRİN SONU ....................................28
İSTƏMƏ ...........................................28

TEZ DEYİL ......................................... 28
QIRMASIN ......................................... 29
ADIN ................................................. 30
YARADANSAN ................................. 30
ASAN DEYİL ...................................... 31
QAN İSTƏDİ ...................................... 31
BİRCƏ YARANIŞ .............................. 32
PEYĞƏMBƏRLƏR ............................. 34
LABÜD DEYİL .................................. 35
ÖZÜ GƏLMƏLİDİR ........................... 36
BÖLƏCƏK.......................................... 36
MATƏM............................................... 37
QAYTAR ............................................ 40
SATILMAZSAN................................. 41
SUAL................................................... 42
DAĞIDICILIQ .................................... 43
RƏNGLƏR.......................................... 43
SONUMUZ ......................................... 44
TƏKSƏN............................................. 44
MƏN NƏ İSTƏYİRƏM...................... 54
NAXÇIVAN........................................ 55
YORĞUNLUQ.................................... 55
GÖRMƏK ........................................... 56

DUZ ..........................................................57
DÜZ DÜZDƏ ..........................................57
TƏKRARLIQ..........................................58
BİLİRİK ..................................................59
BAĞLANMIŞAM ...................................66
SƏBRLİ OL ...........................................67
ŞAİYƏ DEYİL .......................................67
DÜŞÜN, EY BƏŞƏR ............................68
İSTEDAD..............................................69
YAXŞINI AXTAR .................................70
NƏ EDİM..............................................71
QORXMA ...........................................79
OXŞARLARIMIZ VAR. .......................80
DARTIDAYAM ....................................85
BÖLÜBDÜR........................................86
SƏCDƏDƏYƏM ..................................88
*"ÜMİDİMİZ SƏNƏDİR" Kitabının*
*yeni nəşri barədə bir neçə söz* ............90

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Azər Aydın*

**Korrektor:** ***Həsən Yəhya oğlu İsmayılov***

Çapa imzalanmışdır: 16.08.2023.
Formatı 60x84 1/32.
Həcmi 3 ç.v. Sifariş № 95. Tiraj 238

"Zərdabi Nəşr" MMC Nəşriyyat-Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73,
(050; 055; 070) 344 76 01
E-mail: zerdabi_em@mail.ru